**İRADƏ MƏHƏRRƏMOVA**
**Bakı Dövlət Universiteti**
**Zahid Xəlil küç**
**irada@mail.ru**

# FEİLİN MÜRƏKKƏB ŞƏKİLLƏRİNİN MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN CÜMLƏDƏ ROLU

**Xülasə**

Məqalədə müasir Azərbaycan dilində mövcud olan feilin mürəkkəb şəkillərini yaradan hissəciklərdən bəhs olunur. Bu hissəciklərin feilin sadə şəkillərinə artırılması qaydası şərh olunur və hansı sadə şəkillərə artırıla bilməsi nümunələr əsasında göstərilir. Eləcə də hissəciklərin nə üçün bəzi sadə şəkillərə artırıla bilməməsinə aydınlıq gətirilir. Feilin mürəkkəb şəkillərini meydana gətirən bu hissəciklərin morfoloji xüsusiyyətləri izah olunur və mürəkkəb formaların hər birinin işlənməsi imkanları göstərilir. Qeyd edək ki, feilin mürəkkəb formaları feilin sadə formalarını mürəkkəbləşdirir. Bu hissəciklər feilin sadə formalarını mürəkkəbləşdirməklə bərabər həm də müəyyən bir zamanla əlaqələndirir. Onlardan ikisi cümlədə keçmiş zaman anlayışı formalaşdırır və hadisələri keçmiş zamanla əlaqələndirir. Digəri isə gələcək zaman anlyışını ifadə edir. Feilin mürəkkəb şəkillərini formalaşdıran hissəciklərdən ikisi -idi və -imiş cümlənin müstəqil xəbəri ola bilir və feildən barmalaşdT6ı nitq

qoşulması nəticəsində şad olmaq, razı olmaq, kömək olmaq, yaxşılıq etmək, məzəmmət etmək hörmət etmək və s. bu kimi mürəkkəb feillər, yeni leksik vahidlər yaradırlır (1, s. 470).

Y.Seyidov isə feil şəkillərinin rəvayəti və hekayəsinə fərqli cəhətdən yanaşaraq onları köməkçi feil hesab edir. O yazır ki, “idi, imiş köməkçi sözlərdir. Onlar predikativ səciyyəlidir və qoşulduqları adların predikativ rolunda çıxışına səbəb olur, bu halda sözlərin əlaqələnməsinə yardım göstərir, hər hansı bir məfhumu (əşya, əlamət, hərəkət...) keçmiş zamana bağlayır və bütün məqamlarda şəkilçiyə meyil göstərir. Bundan çıxan nəticə belədir: idi, imiş sözlərini bağlama adı ilə məhdudlaşdırmaq dəqiq deyil, idi, imiş sözləri roluna görə ikən, isə sözləri ilə bir qrupda birləşə bilməz” (2, s. 134).

Feilin şəkillərinin həm oxşar, həm də fərqli cəhətləri vardır. Feilin mürəkkəb şəkillərinin oxşar cəhətləri bunlardır.

1) feilin mürəkkəb şəkilləri feilin sadə şəkillərinə qoşularaq, adlarına müvafiq feilin mürəkkəb şəkillərini formalaşdırırlar. Məsələn, -idi$^4$ hissəciyi feilin lazım şəklinə qoşularkən lazım şəklinin hekayəsini düzəldir və ya -imiş$^4$ hissəciyi lazım şəklinə qoşulararq lazım şəklinin rəvayətini, -isə$^2$ hissəciyi lazım şəklinə qoşularkən lazım şəklinin şərtini formalaşdırır və s.

2) Feilin hər üç mürəkkəb şəklinin öz hissəciyi vardır və həmin hissəciklərin qısaldılmış formaları -dı$^4$, -mış$^4$, -sa$^2$ vardır. Məsələn, “İyirmi səkkiz yaşlı cavan bəstəkar S.Qayıblı, təəssüf ki, futbol azarkeşi deyildi; təəssüf ona görə ki, həmin gün futbol azarkeşləri arasındakı ruh yüksəkliyi, böyük ümidlər bu saat onun üçün naməlum bir şey idi və vaxtsız yağış onu daha artıq ***bədbinləşdirmişdi***” (3, s, 9). Bu cümlədə -di$^4$ -idi$^4$ hissəciyinin qısaldılmış şəklidir.

3) Feilin hər üç mürəkkəb şəkli əmr şəklinə qoşula bilmir.

Sadalanan bu oxşar xüsusiyyətlərlə bərabər onlar arasında fərqli cəhətlər də vardır ki, həmin cəhətləri aşağıdakı kimi qruplaşdıra bilərik.

1) “idi, imiş hissəcikləri şühudi keçmiş zamanda oan feilə qoşulmadığı halda, isə hissəciyi həmin zamana artırıla bilir. Məsələn: yazdısa, gəldisə, oxudusa, gördüsə və s.

2) idi və imiş hissəcikləri feilin arzu və şərt şəkillərinə qoşulur, isə hissəciyi isə feilin əmr şəklindən başqa, arzu və şərt şəkillərinə də artırıla bilmir.

3) idi və imiş hissəciləri şəxs şəkilçilərindən əvvəl işləndiyi halda, isə hissəciyi həmin şəkilçilərdən sonra artırlır. Məsələn: almışamsa, alasısansa, almalıdırsa və s” (4).

-idi hissəciyi feilin şəkillərinin mürəkkəb formasının hekayəsini yaradan və onda keçmiş zaman anlayışı formalaşdıran şəkilçidir. “İdi hissəciyi sonu saitlə bitən feil şəkillərində ayrı, sonu samitlə bitənlərdə isə həm ayrı, həm də bitişik yazılır. Şəxs şəkilçiləri isə idi hissəciyinə və ya onun şəkilçiləşmiş formasına (-dı$^4$) artırılır. Məsələn: alırdım, almışdım, alacaqdılar, alası idin, almalı idik, alası idilər, bilirdim, bilmişdin, biləcəkdin, bilə idiniz, bilməli idin, biləsi idik və s.” (5).

Feilin əmr şəklinin mürəkkəb forması. Feilin əmr şəkli -idi$^4$, -imiş$^4$ hissəciklərinin köməyi ilə mürəkkəb ola bilmir, onun məzmununda gələcək zaman anlayışı vardır. Əmr şəkli feil şəkillərinin şərtinin də formal əlamətini qəbul edə bilmir. Əgər qəbul edərsə, bu zaman onun feilin şərt şəklindən heç bir fərqi olmazdı. Məsələn, danış feilinə -isə$^2$ hissəciyinin qısa forması olan -sa$^2$-nı artırmağa çalışsaq, onda feilin şərt şəklini yaratmış olarıq. Deyilənlərdən belə nəticəyə gələ bilərik ki, feilin əm şəkli, feil şəkillərinin rəvayəti, hekayəti və şərti ilə işlənə bilmir. Q.Kazımov “Müasir Azərbaycan dili. Morfologiya” adlı kitabında əmr şəklinin ayrılıqda nə rəvayət, nə də hekayə məzmunu bildirmədiyini, ancaq başqa müstəqil feillərin köməyi ilə keçmiş zaman məzmunu qazana bildiyini qeyd edir. Q.Kazımov yazır ki, “əmr şəklində olan feillərdə iş həmişə müasir səviyyədə özünü göstərir, birbaşa keçmişə aparıla bilmir, odur ki, başqa şəkillərdən fərqlənərək feilin bu şəkli idi, imiş zaman ədatları ilə əlaqələnmir. Lakin başqa feillərin köməyi ilə gələcəyə aid olan əmr, təkid, istək məzmunu bütövlükdə keçmişə aparıla bilər:

Mən buzovu qucaqlardım qaçmasın,
***Deyərdi***: *-**Bax***, badya ***dolsun***, ***daşmasın***"

misaralarının ikincisində əmr şəklində olan, bax, dolsun, daşmasın sözləri deyərdi feilinin köməyi ilə hekayə məzmunu qazanmışdır" (6, s. 222).

Feilin xəbər şəklinin xüsusi əlaməti, yəni ayrıca şəkilçisi yoxdur. O, feil köklərinə zaman və şəxs şəkilçisi artırmaqla düzəlir. Elə -idi hissəciyi də feilin zaman şəkilçilərindən sonra artırlır. Müasir Azərbaycan dilində feilin üç zamanı vardır:

1) keçmiş zaman
2) indiki zaman
3) gələcək zaman

Feilin keçmiş zamanı iki cür olur:

1) şühudi keçmiş zaman;
2) nəqli keçmiş zaman.

Şühudi keçmiş zamanda hadisələr şahidlik yolu ilə verilir. B.Xəlilov şühudi keçmiş zamandan bəhs edərkən qeyd edir ki, "bu zaman iş, hal, hərəkətin şahidlik yolu ilə icra olunduğunu bildirən zamandır. Şühudi keçmiş zamanda iki iş vardır. Biri keçmişdə icra olunmuş iş, digəri isə həmin iş barəsində şahidlik yolu ilə məlumat verilən iş" (7, s, 221). Şühudi keçmiş zaman feilin kökünə və ya başlanğıc formasına -dı*[4]* şəkilçisini artıqmaqla düzəlir. Məsələn,

Ancaq ***darılmadı***, ***çalışdı*** yenə
Dərdi, ***tabaqladı***, dərdi ***üyütdü,***
Qatlaşıb dünyanın hər möhnətinə
Yeddi lay divarlı oğul ***böyütdü*** (8, s. 62).

B.Vahabzadənin nümunə gətirdiyimiz şeir parçasında 5 sözdə şühudi keçmiş zaman şəkilçisi işlənmişdir. Şühudi keçmiş zaman həmin sözlərdə həm feilin başlanğıc formasına, həm də kökünə artırlmışdır. Şühudi keçmiş zamana -idi hissəciyinin qısaldılmış şəkli olan -dı*[4]* şəkilçisini artırmaq olmur. Çünki hər ikisinin şəkilçisi eyni olmaqla bərabər, hər ikisində semantik baxımdan keçmiş zaman anlayışı vardır.

Bəzən cümlələrdə keçmiş zaman məzmunu ifadə etmək üçün həm şühudi keçmiş zamanın şəkilçisi -dı[4], həm də feilin mürəkkəb forması -idi[4] hissəciyi paralel işlənir. E.Əfəndiyevin "Sarı pencək" əsərindən gətirilmiş nümunəyə diqqət yetirək: "Əgər yadınızdadırsa, 1968-ci il aprel ayının 6-da Bakıda axşamçağı bərk yağış ***başladı***, hərçənd günorta hava çox mülayım və ətirli idi. Həmin günü daha yaxşı yadınıza salmaqdan ötrü, xatırladım ki, yağışdan bir az qabaq futbol üzrə otuzuncu ölkə birinciliyinin ikinci turu ***sona yetmişdi*** və "Neftçi" qəzetlərin yazdığı kimi gözəl oyun göstərərək Odessanın "Çernometrs" komandasının qapısından 4 cavabsız top ***keçirtmişdi***" (3, s. 9).

-idi*[4]* feilin keçmiş zamanının digər ifadə forması olan nəqli keçmiş zamanın -mış*[4]* şəkilçisi ilə işlənə bilir. -idi*[4]* hissəciyi nəqli keçmiş zamandan sonra işlənərkən həm ayrı, həm də bitişik yazılır. Məsələn,

Gecə xəlvətcə bizə sevgili yar ***gəlmiş idi,***
Üzü aydan da gözəl nazlı nigar ***gəlmiş idi.***
Tər axıb gül yanağından, bulud ***örtmüşdü*** ayı,
Onu düşmənmi qovub, könlü qubar ***gəlmiş idi*** (9).

Nizami Gəncəvinin "Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi" qəzəlindən nümunə gətirdiyimiz iki beytdə -idi hissəciyi gəlmiş feilindən sonra işlənərkən ayrı, örtmüş

Feilin xəbər şəklinin zaman formalarından olan indiki zaman da feil şəkillərinin rəvayətində işlənə bilir. Belə ki, indiki zaman şəkilçisi olan -ır[4] dan sonra -idi hissəciyi işlənir. Məsələn, Qapının yanında köhnə və balaca dəmir soba yanırdı.

Feilin gələcək zamanının iki forması vardır.

1) qəti-gələcək zaman

2) qeyri-qəti gələcək zaman.

Gələcək zamanın hər iki forması feil şəkillərinin rəvayəti ilə işlənə bilir. Məsələn,

Mən onu canımdan artıq ***sevərdim***,
Bir an ***düşərdisə*** gözümdən iraq.
***Artardı*** həsrətim, ***artardı*** dərdim,
Hər zərrədən onu ***edərdim*** soraq (10, s.23).

M.Müşfiqdən nümunə gətirdiyimiz bu misralarda sevərdim, düşərdisə, artardı, edərdim sözləri qeyri-qəti gələcək zamanın rəvayətində işlədilmişdir.

Qəti-gələcək zaman da qeyd etdiyimiz kimi feil şəkillərinin rəvayəti ilə işənə bilir. Məsələn, İsa kişi elə elçilik məsələsini ***açacaqdı*** ki, qapı astaca döyüldü.

Feilin lazım şəkli də -idi hissəciyini qəbul edə bilir. Məsələn, Səhər tezdən oyanıb quzunu ***kəsəsiydi*** və ətini bişirib qovurma ***edəsiydi***. Bu cümlədə kəsmək və etmək feili lazım şəklinin şəkilçisini qəbul etmiş və -idi hissəciyi artırılmaqla feilin lazım şəklinin hekayəti yaranmışdır.

Feilin vacib şəkli də feil şəkillərinin hekayəsinin göstəricisi olan -idi hissəciyini qəbul edə bilir. Feilin vacib şəklinin şəkilçisi olan -malı[2] şəkilçisindən sonra -idi hissəciyi həm -idi, həm də qısaldılmış şəkildə di[4] gələ bilir. Məsələn, Biz bu məsələ barəsində yuxarılara ***yazmalı idik***, amma nədənsə rəis onları ört-basdır etməyi üstün tutdu.

Feilin arzu şəkli də feil şəkillərinin hekayəsinin şəkilçisini qəbul edə bilir.

Yenə o bağ ***olaydı,*** yenə sizə ***gələydik***,
***Danışaydıq, güləydik***.
Ürkək baxışlarınla ruhumu ***dindirəydin,***
Məni ***sevindirəydin.***
Gizli söhbət açaydıq ruhun ehtiyacından,
Qardaşından, bacından
Çəкinərəк çox zaman söhbəti ***dəyişəydin,***
Mənimlə ***əyişəydin.***
Yenə də bir ***vuraydı*** qəlbimiz gizli-gizli,
Sən ey əsmər bənizli! (10, s. 177).

Şərt şəkli də feil şəkillərinin hekayəsində işlənə bilir.

***Bacarsaydım*** bunu mən
Bu dünyada nə dərdim...
Mən onda öz-özümü
Daha yaxşı görərdim (8, s. 14).

Bircə bu ağbırçək ***ölsəydi*** barı,
Alıb tikdirərdim o arçaları,
Hələ həmayili, saatı da var,
On ildir yanıram ölməyir kaftar (11, s, 28).

Bu nümunədə feilin şərt şəkli feil şəkillərinin mürəkkəb şərti kimi işlənmişdir.

Feil şəkillərinin rəvayəti -imiş[4], və onun qısaldılmış şəkli olan -mış[4] artırmaqla düzəlir. Feilin əmr şəkli feil şəkillərinin hekayəsi ilə işlənə bilmədiyi kimi feil şəkillərinin rəvayəti ilə də işlənə bilmir. Əmr şəklinin feilin mürəkkəb şəkilləri ilə işlənə bilməməsinə Q.Kazımov belə

aydınlıq gətirir. "Əmr şəklinin məzmununda bir qətilik olduğu üçün hekayə və rəvayət əlamətlərini qəbul etmir" (6, s. 240).

Feilin xəbər şəklinin göstəricilərindən olan şühudi ımış[4] (-mış[4]) hissəciklərini qəbul etmir. Feil şəkillərinin hekayəsi kimi rəvayəti də şühudi keçmiş zamana artırıla bilmir, ancaq nəqli keçmiş zamana artırıla bilir. Məsələn, Əhməd bu şəkilləri həmin gün ***çəkibmiş***.

-imiş[4] hissəciyi indiki zamanda işlənən feillərə artırla bilir. Məsələn, Onların evi kəndin aşağısında olmasına baxmayaraq o, hər səhər işə vatında ***gəlirmiş***.

-imiş[4] hissəciyi gələcək zamanın hər iki formasına, həm qəti-gələcək zamana, həm də qeyri-qəti gələcək zamana artırıla bilir. Məsələn, Uşaqlıqdan bəri İlyas evlərinin yaxınlığındakı qəbirstanlığa ***gedərmiş***, oradakı tənha, kimsəsiz qəbirlərin alaqlarını ***təmizlərmiş.*** Sən demə onlar bizə öz yeni evlərindən ***yazacaqmış*** və bizi qonaq ***çağıracaqlarmış.***

-imiş[4] hissəciyi lazım şəkli ilə işlənə bilir. "Lazım şəklinin mürəkkəbi idi, imiş, zaman ədatları və onların şəkilçiləşmiş forması ilə yaranır. İdi köməkçi sözü və onun şəkilçiləşmiş forması (-dı, -di, -du, -dü) lazım şəklinin hekayəsini, imiş köməkçi sözü və onun şəkilçiləşmiş forması (-mış, -miş, -muş, -müş) lazım şəklinin rəvayətini yaradır" (6, s. 255). Məsələn, Onunla sabah ***görüşəsiydik*** ki, görək işlər nə yerdədir. İmrangil iki aya toy ***edəsiymiş***, ancaq qəfil gələn pis xəbər onların planlarını pozmuşdu.

Qeyd edək ki, lazım şəklində icra olunacaq iş gələcəyə aiddir və gələcəklə bağlıdır, ancaq feil şəkillərinin rəvayətinin və hekayəsinin məzmununda keçmiş zaman anlayışı vardır. Ona görə də lazım şəklinin həm hekayəsi, həm də rəvayəti işlənmiş cümlələrdə keçmiş zaman anlayışı olur. Q.Kazımov lazım şəklinin bu xüsusiyyətindən bəhs edərək yazır ki, "lazım şəklinin sadəsində işin icrası gələcək zamana aid olduğundan onun nəticəsi maraqlı deyil. Lakin idi, imiş ədatları hadisələri keçmiş zamana aparmış olduğundan nəticə oxucu üçün maraqlıdır. Hekayə və rəvayət formalarında işin nəticəsi müxtəlif ola bilir: iş icra olunmuş da ola bilir, icra olunmamış da olur. Bu cəhət mətnlə, lazım şəklində olan feilin digər cümlələrdə mənaca əlaqələndiyi sözlərlə bağlı aydınlaşır" (6, s. 256). Deməli, feilin sadə şəkillərinin mürəkkəb forması ilə bağlı bir çox məsələlər cümlə daxilində aydınlaşır və öz həllini tapır.

Arzu şəklinin də rəvayəti vardır. Bu zaman hissəcik həm sözə bitişik, həm də ayrı yazıla bilir. Məsələn, Bütün bunlara baxmayaraq kişi xəstə olanda o, gərək ona baş çəkməyə ***gedəymiş***.

Vacib şəkli də feil şəkillərinin hər üç mürkkəb şəkli ilə işlənə bilir. Məsələn, Onun mənə qarşı apardığı amansız mübarizə tezliklə hamı üçün ***aşkarlanmalı***, ***aydın olmalı idi.*** Baxmayaraq ki, onun xəstəliyi ciddi deyil həkim ona dərman ***yazmalıymış***.

Feil şəkillərinin rəvayəti feilin şərt şəkli ilə işlənərək mürəkkəb forma yarada bilir. Məsələn, Onlar əsas yolla ***gəlsələrmiş*** onda baş vermiş qəzanın qurbanlarından olacaqdılar.

Feilin mürəkkəb şəkillərindən biri də feil şəkillərinin şərtidir. Feil şəkillərinin mürəkkəb şəkli olan feil şəkillərinin şərti -isə[2] və onun qısaldılmış forması olan -sa, -sə ilə düzəlir. Qeyd edək ki, -isə hissəciyinin qısaldılmış forması olan -sa, -sə feilin şərt şəklinin sadə formasının şəkilçisi -sa, -sə ilə bir-birinə bənzəyir, ancaq bunlar arasındakı fərqi bilmək lazımdır ki, onları bir-biri ilə qarışdırmasın. Feilin şərt şəklinin şəkilçsi olan -sa, -sə feilin kökünə və ya başlanğıc formasına artırlır, ancaq feilin mürəkkəb şəkli olan -sa, -sə isə feilin sadə şəkillərininin şəkilçilərindən sonra artırlır. Məsələn, yazsa, gəlsə, yazılsa, yazdırsa və s. feilin kökünə və ya başlanğıc formasına artırıldığı üçün feilin şərt şəklini yaratmışdır. Ancaq yazmalıyıqsa, yazasıyıqsa, gedəcəksə və s. feilin sadə şəkillərinin şəkilçilərindən sonra artırıldığı üçün feilin mürəkkəb şəkillərinin şərtini yaratmışdır.

Feil şəkilllərinin şərti, daha doğrusu, -isə[2] hissəciyi feilin əmr şəklinə qoşula bilmir. Feil şəkillərinin rəvayəti və hekayətindən fərqli olaraq xəbər şəklinin göstəricilərindən olan şühidi

keçmiş zamana da artırıla bilir. Məsələn, Mən onu nə qədər xəbərdar ***etdimsə***, yenə də o mənə qulaq asmadı.

-isə hissəciyi indiki zamanla da işlənə bilir. Əgər imzasız məktubları o ***yazırsa*** demək ki, ona kimsə kömək edir.

-isə hissəciyi gələcək zamanın hər iki forması ilə işlənə bilir. Bu hissəcik feilin həm qeyri-qəti, həm də qəti-gələcək zamanına artırıla bilir. Əlyar mənə bu məsələ haqqında ***yazarsa*** mən ona hər şeyi deməli olacağam. İşləri yarımçıq ***qoyacaqdınızsa*** gərək əvvəldən razılıq verməzdiniz.

-isə hissəciyi arzu və şərt şəkillərinə də artırıla bilmir.

-isə hissəciyi lazım və vacib şəkillərinə artırıla bilir. Məsələn, Mən sənin tapşırıqlarını ***yazasıyamsa*** onda sən də mənə ev işlərində kömək etməli olacaqsan.

Bütün sənədlərə imza ***çəkilməlidirsə***, onda müdir ezamiyyətdən tez qayıtmalıdır.

-isə hissəciyi feil şəkillərinin şəkilçilərindən, şəxs şəkilçilərindən eləcə də zaman şəkilçilərindən sonra işlənir. Şəxs şəkilçilərindən sonra işləndiyi üçün müstəqil cümlənin xəbəri ola bilmir.

Qeyd edək ki, feilin mürəkkəb şəkilləri ancaq feillərlə deyil digər nitq hissələri ilə də işlənə bilir. Bu zaman onlar aşağıdakı xüsusiyyətləri ifadə edə bilirlər.

1) idi və imiş hissəcikləri adlara artırılaraq cümlədə ismi xəbər ola bilir. Məsələn, müəllim idi, tənbəl imiş, onuncular idi, bu imiş, geridə idi, yaxında imiş və s.

2) feil şəkilərinin şərti müstəqil cümlənin xəbəri ola bilmir. Yuxarıda da qeyd etdiyimiz ki, o şəxs şəkilçilərindən sonra işləndiyi üçün müstəqil xəbər əmələ gətirə bilmir.

Felin mürəkkəb şəkilləri barəsində söylədiyimiz fikirlərə əsaslanaraq belə nəticəyə gələ bilərik:

1) Feilin mürəkkəb şəkillərinin hər birinin ayrıca morfoloji göstəricisi vardır ki, həmin göstəricilər cümlədə müəyyən zaman ifadə edə bilir;

2) Feilin şəkillərinin rəvayəti və hekayəsi hansı sadə şəkilə artırılmasına baxmayaraq daha çox hadisələri keçmiş zamana bağlayır;

3) Feilin mürəkkəb şəkillərinin hissəciklərini nə bağlama, nə köməkçi feil hesab etmirik, onların hissəcilər adlandırılmasının tərəfdarıyıq;

4) Feilin mürəkkəb şəkillərinin hissəcikləri feildən başqa digər nitq hissələrinə artırıla bildiyi üçün onun işlənmə dairəsi daha genişdir və cümlədə baş verən hadisələri müxtəlif cəhətdən izah etməyə imkan verir. Müxtəlif cəhətdən izah etmək dedikdə biz onların isimlərə artırılaraq ad, sifətlərə artırılaraq əlamət bildirməsini, saylara artırılaraq miqdar bildirimləsini, zərfə artırılaraq əlamət bildirməsini nəzərdə tuturuq. Bu baxımdan feilin mürəkkəb şəkilləri ancaq morfologiya bəhsi üçün deyil, eləcə də sintaksisi bölməsi üçün mühüm mövzulardan biridir.

5) Feilin mürəkkəb şəkillərinin hissəciklərinin həm ayrı, həm də bitişik yazılması onun işlənmə dairəsini genişləndirir, həm nəsr, həm də nəzm üçün geniş imkanlar açır.

## Ədəbiyyat

1) Müasir Azərbaycan dili. Azərbaycan SSR. Elmlər Akademiyası. Morfologiya, 3 cilddə, II cild , Bakı: Elm,1980, 499 səh

2) Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, 371 səh.

3) Əfəndiyev E. Seçilmiş əsərləri. X cilddə. 1-ci cild. Bakı: Çinar-Çap, 2005, 626 s.

4)https://kayzen.az/blog/Az%C9%99rbaycan-dili/9344/felin-m%C3%BCr%C9%99kk%C9%99b-%C5%9F%C9%99kill%C9%99ri.html
5)https://language.az/08196335.html
6) Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Nurlan, 2010, 400 s.
7) Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası II hissə. Bakı: Papirus NP, 2007, 2016, 352 s.
8) Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Öndər, 2004, 328 s.
9)https://az.wikisource.org/wiki/Gec%C9%99_x%C9%99lv%C9%99tc%C9%99_biz%C9%99_sevgili_yar_g%C9%99lmi%C5%9F_idi
10) Müşfiq M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 352 s.
11) S.Vurğun. Seçilmiş əsərləri. 5 cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005, 248 s.

**I.Maharramova**

## Morfological features of complex forms of verbs and their role in sentence

### Summary

The article deals with the particles that create the complex form of the verb which exist in the modern Azerbaijani language. These particles are explained in rules of the simple forms of verb and are shown on the basis of examples of which simple forms can be increased. It also explains why particles can not be increased in some simple forms. The morphological features of these particles that form the complex forms of verb are explained and the ability to process each of the complex forms. Let us note that the complex forms of verb complicate simple forms of verb. These particles complicate the simple forms of verb as well as coordinate with a specific time. Two of them formulate an understanding of the past and coordinate events in the past. The other is the future. Two of the particles –idi, imiş forming the past tense form of verb and can be independent predicative and may be added to other speech parts expect from the verb. However, -isə does not have the independent predicative of the sentence. In general, there are similar and distinctive features among these particles and it reflect in the article. In the article, the complex particles of the verb forms are separately analyzed. Not only the morphological features of these particles are explained, but also on the basis of the examples of which syntactic features are expressed. These particles, which form the complex forms of verb, are both separate and adjacent. Their separate and adjacent writing expands the style of the particles. Thus, separately and adjacent writing of particles opens up great opportunities for poetry, especially poetry.

**Key words**: verb, simple forms of verb, complex forms of verb

**Магеррамова Ирада**

**Морфологические особенности сложных форм глаголов и их роль в предложении**

**Резюме**

В статье рассматриваются частицы, создающие сложную форму глагола и существующие в современном азербайджанском языке. Эти частицы объясняются в правилах простых форм глагола и показываются на примерах, на которых простые формы могут быть увеличены. Это также объясняет, почему частицы не могут быть увеличены в несколько простых форм. Объясняются морфологические особенности этих частиц, образующих сложные формы глагола и способность обрабатывать каждую из сложных форм. Отметим, что сложные формы глагола усложняют простые формы глагола. Эти частицы усложняют простые формы глагола, а также координируют с определенным временем. Два из них формулируют понимание прошлого и координируют события в прошлом. Другое будущее. Две частицы –idi, - imiş образующие форму глагола прошедшего времени и могут быть независимыми предикативными и могут быть добавлены к другим частям речи, ожидаемым от глагола. Однако, -isə не имеет независимого предикативного предложения. В целом, между этими частицами имеются сходные и отличительные признаки и это отражено в статье. В статье отдельно анализируются сложные частицы глагольных форм. Объясняются не только морфологические особенности этих частиц, но и на основе примеров, на которых выражаются синтаксические особенности. Эти частицы, образующие сложные формы глагола, являются как отдельными, так и смежными. Их раздельное и смежное написание расширяет стиль частиц. Таким образом, раздельное и смежное написание частиц открывает большие возможности для поэзии, особенно поэзии.

**Ключевые слова**: глагол, простые формы глагола, сложные формы глагола

Redaksiyaya daxil olma tarixi: 12.06.2019
Çapa qəbul olunma tarixi: 27.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent İradə Şəmiszadə tərəfindən çapa tövsiyə olunmuşdur.